AZƏRBAYCAN 23 dekabr 2007-ci il

# Şəkidə Prezident kuboku uğrunda atüstü milli oyunlar keçirilir

**Xəbər verildiyi kimi, Azərbaycan xalqının at belində oynanılan milli oyunlarının qorunub saxlanılması, qədim tarixə malik atçılıq ənənələrinin bərpası, ölkəmizdə atçılıq turizminin təbliği, gənc nəsildə bu sahəyə marağın oyadılması və kütləviliyin artırılması məqsədi ilə dekabrın 21-də Şəki rayonundakı respublika Atçılıq Turizm Mərkəzində Prezident kuboku uğrunda çövkən və digər milli oyunlar üzrə yarışlara start verilmişdir.**

Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə keçirilən və dekabrın 24-dək davam edəcək bu yarışlarda respublikamızın müxtəlif şəhər və rayonlarını təmsil edən 12 komanda mübarizə aparır. Qəbələ, İsmayıllı, Yevlax və Ağcabədi rayonlarının komandaları yarışlarda ilk dəfədir ki, iştirak edirlər.

Əsasnaməyə uyğun olaraq, Atçılıq Turizm Mərkəzində çövkən üzrə yarışlarda iştirak edəcək komandaları müəyyənləşdirmək üçün seçmə oyunlar keçirilmişdir. Seçmə oyunlarda rəqiblərini məğlub edən Balakən, Zaqatala, Qax və Oğuz komandaları 2006-cı ildə I-IV yerləri tutmuş Ağstafa, Şəki, Qazax və Ağdam komandaları ilə birlikdə çıxış etmək hüququ qazanmışlar. Seçmə oyunlarda uduzan Yevlax, Qəbələ, İsmayıllı və Ağcabədi komandaları isə papaq oyunu üzrə yarışlarda öz qüvvələrini sınamışlar.

AzərTAc-ın müxbiri xəbər verir ki, dekabrın 22-də Şəki respublika Atçılıq Turizm Mərkəzində Prezident kuboku uğrunda çövkən və digər milli oyunlar üzrə yarışların təntənəli açılış mərasimi olmuşdur. Şəhər rəhbərliyinin, iştirakçı rayonların nümayəndələrinin və çoxlu sayda azarkeşin qatıldığı mərasimi açan Şəki Şəhər İcra Hakimiyyəti başçısının müavini Zərinə Cavadova nağıl və dastanlarımızda, mahnı və şeirlərimizdə ən sevimli qəhrəmanımız, igidlik və şücaət rəmzi olan, insanın ən vəfalı dostu sayılan at ilə bağlı keçirilən bu oyunların ölkəmizdə atçılıq turizmi və milli oyunların inkişafı, qədim atçılıq ənənələrinin bərpa etdirilməsi məqsədi daşıdığını bildirmişdir.

Şəki musiqiçilərinin, eləcə də F.Əmirov adına Dövlət Mahnı və Rəqs Ansamblı üzvlərinin şux mahnı və rəqsləri yarış iştirakçılarını qələbəyə ruhlandırmışdır.

Sonra papaq oyunu üzrə final görüşü keçirilmişdir. Ağcabədi komandası Qəbələ atçılarını 5-4 hesabı ilə məğlub edərək oyunların bu növü üzrə qalib adını qazanmışdır. Yevlax və İsmayıllı komandaları sonrakı yerləri bölüşdürmüşlər.

Daha sonra əsas yarışlara - çövkən oyununa start verilmişdir. Bu mərhələnin oyunlarında Şəki-Zaqatala - 4:0, Ağdam-Qax - 2:0, Ağstafa-Balakən - 1:0, Qazax-Oğuz - 1:0 hesabları qeydə alınmışdır. Qalib komandalar sonrakı mərhələdə iştirak etmək hüququ qazanmışlar. Rəqiblərinə uduzan Zaqatala, Qax, Balakən və Oğuz komandaları isə dekabrın 23-də sür papaq oyununda birincilik uğrunda mübarizə aparacaqlar.